**Atların afrika xəstəliyinə insanlar yoluxmur!**

Virusun ölkə ərazisinə daxil olmasının qarşısının alınması məqsədi ilə atların idxal edildiyi ölkələrdə bu xəstəliklə bağlı son **epizootik vəziyyət izlənilməlidir.**



## XƏSTƏLİYİN İQTİSADİ ZƏRƏRLƏRİ

**ATLARIN AFRİKA XƏSTƏLİYİNİN MÜALİCƏSİ YOXDUR.**

Xəstəlik nəticəsində heyvanlar arasında kütləvi tələfat baş verir;
Xəstə və xəstəliyə şübhəli atlar öldürülərək cəsədləri məhv edilir;
Xəstəlik baş verdikdə təsərrüfata karantin tətbiq edilir;
Xəstəliyin mövcudluğu ölkələrarası beynəlxalq ticarəti, o cümlədən yeni at cinslərinin ölkəyə idxalını məhdudlaşdırır.

Azərbaycanda atların afrika xəstəliyi qeydə alınmayıb. Odur ki, bu xəstəliyə qarşı ölkəmizdə atlar arasında **profilaktiki peyvəndləmə tədbirləri həyata keçirilmir.**

**1003**
Çağrı mərkəzi


Azərbaycan Respublikasının
**Qida Təhlükəsizliyi Agentliyi**

info@afsa.gov.az
www.afsa.gov.az
+994 12 377 00 77


AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ



# ATLARIN AFRİKA XƏSTƏLİYİ

## ATLARIN AFRİKA XƏSTƏLİYİ

Atlar arasında yüksək tələfata (90-95%) səbəb olan transmissiv yoluxucu virus xəstəliyidir.

## XƏSTƏLİK HAQQINDA MƏLUMAT

Azərbaycanda indiyədək atların afrika xəstəliyi qeydə alınmayıb. Xəstəliyin törədiciləri reoviruslar ailəsindən olan RNT-li viruslardır.

## XƏSTƏLİYİN MƏNBƏYİ VƏ XƏSTƏLİYƏ YOLUXMA YOLLARI

İnfeksiya törədicisinin mənbəyi qansoran həşəratlar hesab olunur. Virus sağlam heyvanlara qansoran həşəratların (ağcaqanad, gənə, milçək) dəri örtüyünü dişləməsi nəticəsində sirayət edir. Törədicinin sağlam heyvanlara birbaşa təmas zamanı yoluxması isə istisnalıq təşkil edir.
Cavan atlar xəstəliyə daha çox həssasdır.
Xəstəlik mövsümi xarakter daşıyır.



## XƏSTƏLİYİN GEDİŞİ

**XƏSTƏLİYİN GEDİŞİ 4 FORMADA MÜŞAHİDƏ OLUNUR: İLDIRIMVARİ, İTİ, YARIMİTİ, QARIŞIQ.**

**İldırımvari** - inkubasiya müddəti 3-4 gündür. Bədən hərarəti kəskin surətdə 41°C-dək yüksəlir, 5-7 günə heyvan ölür.
**İti** - ağciyər formasıdır. Hərarət yüksəlir, tənəffüs çətinləşir, öskürək başlanır, burun və ağız boşluqlarından serozlu maye axır.
**Yarımiti** - ürək formasıdır. Daha uzun müddətli inkubasiya dövrü 7 günədək olur. Yüksək hərarət 3-4 gün davam edir, Heyvan 10-15 gün içində ürək fəaliyyətinin zəifliyi nəticəsində ölür.
**Qarışıq** - kliniki əlamətlər yuxarıda təsvir olunan formaların hamısının eyni vaxtda biruzə verməsi ilə xarakterizə olunur, hipoksiya və heyvanın ölümü ilə nəticələnir.



## XƏSTƏLİYİN KLİNİKİ ƏLAMƏTLƏRİ

- Yüksək hərarət
- Dərialtı toxumada şişkinliklər
- Öskürək
- Ürək çatışmazlığı
- Göz qapaqlarının şişməsi
- Tənəffüs yollarının selikli qişasının iltihabı
- Hemorragiya

## XƏSTƏLİYƏ QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ

Təsərrüfatlarda mütəmadi olaraq kompleks baytarlıq-sanitariya tədbirləri həyata keçirilməlidir.
Təsərrüfata yeni alınmış atlar mütləq karantində saxlanılmalıdır.
Atların afrika xəstəliyi aşkar olunan ölkələrdə heyvanlar arasında profilaktiki peyvəndləmə tədbirləri həyata keçirilir.
Heyvanlarda peyvəndləmə bir ildən çox müddətə immunitet yaradır.

